# ƏLİŞİR NƏVAİNİN "SİRACUL-MÜSLİMİN" ƏSƏRİNDƏ İSLAM EHKAMLARININ ESTETİK QAYƏ VƏ ŞƏRHİ

**Almaz ÜLVİ BİNNATOVA,** *Prof.Dr.*
*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun "Azərbaycan-Türkmənistan-Özbəkistan ədəbi əlaqələr" şöbəsinin müdiri, Bakı,*
E-mail: almazulvi1960@mail.ru

***Xülasə: "Sirac ul-muslimin"*** *("Musəlmanların cırağı") islamın Türküstan elində geniş yayılmağa başladığı dövrlərdə qələmə alınmışdır. Amma bütün ədəbiyyat - bilgilər ərəb, az qismi isə fars dilində idi. Nəvainin məqsədi islam ehkamlarını – qanun-qaydalarını xalqıa öz dilində anlatmaq idi. Yəni, xalq islam əxlaqına anlamadığı ərəb dilində başa düşməyərək itaət etməkdənsə, öz dilində də bunları anlamasının gərəkliyini çatdırmaq idi. "Müsəlmanların çırağı"nı məhz bu nöqteyi- nəzərdən araya-ərsəyə gətirməyi özünə borc bilmişdi. Əsərin ən böyük özəlliyi, yeniliyi, fəlsəfi – estetik qayəsi məhz bundan ibarətdir. Ömrünün son zamanlarında, özünün də yazdığı kimi zəif, halsız vücudu ilə, amma ruhunu Allaha – islam peyğəmbərinə təslim etmiş şair xalqına, millətinə, islam əhli sadə türk insanlarına bu borcunu da ödəyə bilmişdi.*

***Açar sözlər:*** *Əlişir Nəvai, "Sirac ul-müslümin", Herat islam məktəbi, ilahiyyat, islam ehkamları*

***Резюме:*** *Книга Мир Алишира Наваи «Сиродж уль-Муслимин» («Светильник мусульман») была написана в то время, когда ислам начал широко распространяться в Туркестане. В то время вся литература – знания были арабскими и небольшая часть – персидскими. Целью А.Наваи было объяснить своему народу исламские правила и постановления на его родном языке. Вместо того, чтобы подчиняться, не понимая исламской морали на арабском языке, люди должны были понимать ее на своем родном языке. С этой точки зрения он посчитал своим долгом воспитать «светильник мусульман». Именно в этом и состоит величайшая особенность, новизна, философская и эстетическая цель произведения. В конце жизни, как писал своим слабым, беспомощным телом поэт, предавший свой дух Аллаху – пророк ислама, он смог отдать этот долг людям, натsіональностям и исламскому народу – простому народу. Турецкий народ.*

***Ключевые слова:*** *Алишир Наваи, «Сираж уль-Муслимин», Гератская исламская мактаби (школа), теология, исламские догматы.*

***Abstract:*** *Mir Alishir Navai's "Siroj ul-Muslimin" ("The Lamp of the Muslims") was written at the time when Islam began to be widely used in Turkistan. At that time, all the literature - knowledge was Arabic and a small part in Persian. A.Navai's purpose was to explain the Islamic rules and regulations to his people in his own language. Instead of to obey without understanding the Islamic morality in the Arabic language, the people should have understood it in their own language. He has considered his duty to bring up "lamp of the Muslims" from this point of view. This is exactly the greatest feature, novelty, philosophical and aesthetic aim of the work. At the end of his life, as he wrote, with his weak, helpless body, the poet who surrendered his spirit to Allah –the prophet of Islam, he was able to pay this debt to the people, nationalities, and Islamic people - ordinary Turkish people.*

***Key words:*** *Alishir Navai, "Siraj ul-Muslimin", Herat Islamic maktabi (school), theology, Islamic tenets*

Əlişir Nəvainin dini mövzuda nəzmlə qələmə aldığı əsərlərindən biri də "Siracul-müslimin" [1,595-612] ("Müsəlmanların cırağı") adlanır.

*Doqquz yüz beşdə bir farxunda farzand,*
*Ədəb ilə tavozudin barumand.* [1,611]

"Siracul-müslimin"in yüz doxsan doqquzuncu beytindəki bu rəqəm əsərin yazıldığı hicri 905-ci il (miladi 1500-ci il) tarixi bildirir. Müəllif əsərin adını iki yüz dördüncü beytdə belə yazır:

*Bu ravşan aylar islam əhli zatın,*
*"Siracul-müslimin" qoymuşam adın.* [1,611]

[Mənası: Müsəlmanların islamı anlaması – aydın dərk etməsi üçün kitabın adını "Siracul-müslimin" ("Müsəlmanların çırağı") qoydum]. Əslində, əsərin fəsil başlıqlarına diqqət edilirsə, onun məzmun və mövzu qayəsi heç bir şərh edilmədən bu gün üçün də tam olaraq açıqlanır, amma Əlişir Nəvainin yaşadığı dövrdə "Siracul-müslimin" əsərinin məzmununda qoyulan məsələlər türk dilində danışan qövm üçün qaranlıq idi. Məlumdur ki, islamın Türküstan elində geniş yayılmağa başladığı dövrlərdə bütün ədəbiyyat, bilgilər ərəb, az qismi isə fars dilində idi. Əlişir Nəvainin məqsədi islam ehkamlarını – qanun-qaydalarını xalqa öz dilində anlatmaq idi. Yəni xalq islam əxlaqına anlamadığı ərəb dilində itaət etməkdənsə, öz dilində də bunları başa düşməsinin əhəmiyyətini çatdırmaq idi.

Əlişir Nəvai türkcə yazdığı "Siracul-müslimin"i ("Müsəlmanların çırağı") məhz bu nöqteyi-nəzərdən araya-ərsəyə gətirməyi özünə borc bilmişdi. Əsərin ən böyük özəlliyi, yeniliyi, fəlsəfi-estetik qayəsi məhz bundan ibarətdir. Ömrünün son zamanlarında, özünün də yazdığı kimi zəif, halsız vücudu ilə, amma ruhunu Allaha təslim etmiş şair xalqına, millətinə, islam əhli olan sadə türk insanlarına bu borcunu da ödəməyə fürsət tapmışdı. Beləliklə, əsərin qısa məzmun haqqında tam təsəvvür yaratmaq üçün fəsil başlıqlarının adını və hər bir fəsil adının qarşısında neçə beytdən ibarət olduğu da diqqətə çatdırırıq. Eyni zamanda, Əlişir Nəvainin məqsədini şərhlə verdiyimiz kimi, orijinal beytləri də vermək niyyətində olduq. Çünki bəzən şərhlər geniş verilsə də, Əlişir Nəvai həmin fikri cəmi üç və ya beş beytdə vermişdir. Əsərin yazıldığı tarixi nəzərə alaraq maraq doğuracağına əminik.

Məsnəvi (nəzm) şəklində yazılmış "Siracul-müslimin" girişlə birgə iki yüz dörd beytdən *(Türkiyəli nəvaişünas Tanju Oral Seyhan "Ali Şir Nevayi – Siracül-müslimin (Karşılaştırmalı metin)" tədqiqat əsərində 213 beyt həcmində deyə qeyd edir),* iyirmi səkkiz fəsildən *(Tanju Oral Seyhan tədqiqatında qeyd edir ki, Təhəyyümün fərzləri B-bir yerdə verilib (Təyəmmümün fərzləri və Təyəmmümün naqisi) bunu bir azdan verməli, hansı nüsxələrdə işləyib, Agah Sirri Ləvənd nə edib və s. Ona görə Tanju Seyhan*

*da 29 bölmə verilir),* həmd və nət, əsərin yazılma səbəbi, islam hüququ və əqidə məmsələlərinin şərhi, islamın beş əsas şərti və xatimədən ibarətdir.

Giriş (beş beyt)**:** “Bismillahir-rəhmanir-rəhim” [1,596] (“Bağışlayan və mehriban Allahın adı ilə”) duası ilə başlayaraq ilk beş beytdə Allaha həmd və Məhəmməd peyğəmbərə (s) nət vəsf edilir [1,596]. Girişdə şair Allahın sifətlətini bəyan edir: Allahın bənzəri yoxdur, onun qüdrəti hər şeydən xəbərdardır, bəndələri kimi ehtiyacı olmur.

1. Kitab nəzminin səbəbi [1,596] (Kitabı yazmağın səbəbi) (otuz dörd beyt)**:**

Əruzun həcəzi-müsəddəsi-məhzufi vəznində yazılmış “Siracul-müslimin” əsərinin yazılma səbəbini açıqlamaq üçün yenə də ənənəvi üsulla başlayır. Təbii ki, bütün əsərlərində olduğu kimi, kitabın yazılma səbəbini açıqlarkən, ilk olaraq, Sultan Hüseyn Bayqaraya ehtiram və sayğısını ifadə edir. Sultanın onunla bağlı dediyi bir hadisəni xatırladır: “Əlişir Nəvainin şeirləri çox gözəldir, onlardan zövq alan bir insan yenidən o şeirləri dinləmək istəyir. Əlbəttə ki, çox yaxşı işlər görmüşdür, amma axirətdə bunların hamısı nəzərə alınacaqmı?” [1,597].

Şair, Sultan Hüseyn Bayqaranın hörmətlə ifadə etdiyi bu fikrinin ardınca belə bir əsər yazmaq məqamının çatdığını bildirir.

*Xəyalıma akayid gəldi nagah,*
*Bu manidən məni şeyx etdi agah* [1,597].

Bu sətirdəki “şeyx” ifadəsi Xoca Əhrar Ubeydullaha (Xoca Əhrar Ubeydullah – 1404, Daşkəndə yaxın Bağıstan qışlağı – 1490, Səmərqənd) aiddir.

“Kitab nəzminin səbəbi” fəslində Səmərqənddə təhsil aldığı mədrəsədə Xoca Ubeydullahın söhbətlərində olmasından, sonralar Herata qayıdarkən onun sifarişi ilə islam əhlinə, türk ulusuna islam düşüncəsini aşılamaq üçün bu risaləni yazmasından bəhs edir. Günlərin birində Səmərqənddən bir məna əhli olan (sufi) şəxs Herata gəlir. Əlişir Nəvai həmin mömin şəxslə görüşür. Görüş əsnasında Xoca Əhrar Valinin bir sözünü şairə çatdırır. Sözün məğzi bu imiş ki, Xoca Əhrar Əlişir Nəvaidən islam ehkamlarını sadə xalqa çatdıran bir əsər yazmasını istəyirmiş.

Bu mübarək sifarişdən sonra Əlişir Nəvai ustadının – Səmərqənddə ona dərs vermiş ustadının arzusunu yerinə yetirir – “Siracul-müslimin” əsərini yazır.

Əsərin ilk bölməsində məhz bu nüfuzlu islam bilicisi haqqında bəzi məlumatları qeyd edir, ona sayğı və məhəbbətini izhar edir: Xoca Əhrar Ubeydullah Səmərqənddə yaşayan hörmətli və nüfuzlu bir şəxs – məşhur şeyx, nəqşibəndilik təriqətinin təmsilçilərindən biri, varlı və nüfuzlu din xadimi olub [1,687]. Ustadının tövsiyəsini əsərin üçüncü fəslindən – şəriət qaydalarının şərhindən başlayır.

2. Şəriətdə ehkamın şərhi, onun əqidə və qaydalarının ifadəsi (beş beyt)**:**

*Bil əvvəl kim, erur şər içrə ehkam,*

*Ki, bilmək fərz oldu qılsam islam.*
*Ol ehkam iki yanliq oldu mövcud,*
*Ki, vardır hər birində özgə məqsud.*
*Birindən murad aldı əqidə,*
*Əməl mətlub oldu o birində.*
*Akaid dedilər əvvəlki ism,*
*Ikinci ehkam fəridun tapıb qism.*
*Əməldən çün əvvəl gəldi akaid,*
*Bəs, ondan yetkuray əvvəl favoyid* [1,599].

Bu sətirlərdə şair bildirir ki, islam ehkamları iki hissədə nəzərdən keçirilir: əqidə və amal. Əqidə təmiz, saf olmazsa, amalın əhəmiyyəti ilahiyə yetişməz.

3. İman qaydasının icmalı (üç beyt)**:** Əlişir Nəvai əsərin dördüncü bölümündə iman şərtlərinin qaydasını sıralayır:

*Dilər olsan ona özünü yetirmək,*
*Bil, altı qaydaya iman gətirmək* [1,599].

1) Allah-Təalanın varlığına və birliyinə inanmaq;
2) Mələklərinə inanmaq;
3) Allah-Təalanın endirdiyi kitablarına inanmaq;
4) Allah-Təalanın peyğəmbərlərinə inanmaq;
5) Axirət gününə inanmaq;
6) Qədərə, yəni xeyir və şərlərin (yaxşılıq və pisliklərin) Allah-Təaladan olduğuna inanmaq.

4. Möminlərin bəyanı (yeddi beyt) adlı beşinci fəsildə Əlişir Nəvai qeyd edir ki, “din və islam evinin mömin olması üçün bir nəzm yazım desəm də, bu səbəblə islam əhlinə yararlı olması üçün əvvəl Allaha inanmağı açıqlayaq. Elə dəqiq və sadə açıqlayaq ki, onu türk milləti anlasın”. Allahdan başqa Allah yoxdur, Allah hər şeyə qadirdir, hər şeyin yaradanı odur:

*Xudayədir yaradan budu nəbud,*
*Ki, ondan özgə yoxdur Tanrı mövcud.*
*Yenə bilmək gərəkdir ki, Xaliq,*
*Yaradibdır ibadətə müvafiq* [1,599].

5. Allahın səkkiz sifəti, aqaid daxildir(səkkiz beyt)**:**

*Yenə səkkiz sifətə mu’taqid bol,*
*Onlardan hər biri göstərir yol.*
*Kim, ol səkkiz erur Haqqın sifəti (üzü),*
*Ki, boridin munazzah qildi zati* [1,600].

Allaha məxsus olan səkkiz sifəti qələmə alır:

1) Həyat.
2) Elm.
3) İradə.
4) Qüdrət.
5) Səm (eşitmə).
6) Bəsarət (görmə).
7) Kəlam.
8) Yaratma.

Allahı bil ki, ona itaət etmək şərtlərinə sahib olasan. Bu məqsədi qarşısına qoyan şair Allahını tanımalı, ona tapınmalı, onun qüdrətinə bələd olmalı, imanına sadiq olmalı, ona güvənmək kimi, dini və onun peyğəmbərlərini, müqəddəs kitablarının insan, cəmiyyət həyatındakı mənəvi, fəlsəfi-estetik dəyərini, qayəsini nəzmə düzüb.

6. Haqqı çox bilmək əqidədəndir(səkkiz beyt) adlı fəsildə islam əqidəsindəki – qəbir əzabını, iki mələyin (İnkir və Münkir) sorğularını, Sirat körpüsü və haqq-tərəzini, cənnət və cəhənnəmi, Rəsulullahın (s) şəfaətini, Həzrət Peyğəmbərin (s) bunların ən alisi olduğunu, övliyanın kəramətini şərh edir:

*Əzabi qəbr erur kufr əhli hasi,*
*Yenə din əhli bəzi olsa asi.*
*Yenə iki mələyindir sualı,*
*Yenə riayət Allah ehtimalı* [1,600-601].

7.İslam fərzlərinin (vacib şərtlərinin) şərhi(yeddi beyt)**:**

*Ona kim oldu iman əmiri kirdar,*
*Gərək islamdam olsun xəbərdar.*
*Binasın anlagil islamın beş,*
*Onu bilməklə olgil fikrətəndiş.*
*Bir beşdən biri erur ləfzi şəhadət,*
*Ki, deyirlər onu əhli səadət.*
*Erür bir bil ki, Tanrı əvvəl,*
*Məhəmməd onun xalqına mürsəl.*
*Bu söz iman sözündə oldu məzkur,*
*Akaid şərhinə eylər də məstür* [1,601].

1) Kəlimeyi-şəhadət gətirmək.
2) Namaz qılmaq.
3) Zəkat vermək.
4) Ramazan ayında oruc tutmaq.

5) Həccə getmək.

Əlişir Nəvai bundan sonrakı fəsillərdə islamın fərzlərini – təharət, qüsl, namaz, zəkat, ramazan rizası, həcc ilə bağlı şəriət qanunlarının şərhini verir. Qüslün (təmizlənmənin) fərzləri və sünnətlərini, abdəst almağın bəyənilən və əskik qalan tərəflərini, yuyunmanın vacibliyini, yuyunmanın fərzlərini və sünnətlərini, su tapılmayan (olmayan) yerdə torpaqla abdəst almanın fərzlərini və əskiklərini, namazın fərzlərini, vacibliyini, sünnətlərini, bunların rükətlərinin sayını, zəkat, oruc və həccin məqsəd və vacibliyi şərh edilir.

8. Təharət (Dəstəmaz) fərzlərinin bəyanı(yeddi beyt)**:**

*Təharət içrə bilgil, kim dörd erür fərz,*
*Gər etsən istima eylə onu ərz* [1,602].

Bu fəsildə Təharətin dörd fərzindən bəhs edir:

1) Üzü yuduqda niyyət - üzü yumaq.
2) Əlləri dirsəklərlə birlikdə yumaq.
3) Başın bir hissəsinə məsh etmək.
*4)* Ayaqları topuqlarla birlikdə yumaq.

9. Təharət (Dəstəmaz) sünnətlərinin (yolunun) şərhi(yeddi beyt)**:**

*Vüzuda on iki iş gəldi sünnət.*
*Birisini təsmiyə bil, birini niyyət* [1,602].

Bu günkü kitablardan da məlumdur ki, təharət (dəstəmaz) sünnətlərinin şərhi ondur:

1) "Bismillah" ilə başlamaq.
2) Əlləri qaba salmadan öncə dirsəyə qədər üç dəfə yumaq.
3) Ağız və burunu yumaq.
4) Başın bütün hissəsinə məsh çəkmək.
5) Qulaqlara (çölünə və içinə) yeni su ilə məsh çəkmək.
6) Sıx olan saqqalı (suyun dəriyə çatması üçün) ovmaq.
7) Əl və ayaq barmaqlarını (arasına su çatmalı) ovmaq.
8) Sağı soldan öncə yumaq.
9) (Yuyulacaq üzvləri) üç dəfə yumaq.
10) Müvalat

10. Təharətin (Dəstəmazın) müstəhəbləri (dörd beyt)**:**

*Təharət içrə altı müstəhabdır, eşitsin hər kişi əhli tələbdir* [1,603]*:*

1) Əvvəlcə niyyət.
2) Başa məsh çəkmək.
3) Boyuna məsh çəkmək.

4) Təyəmmüm etmək.

11. Təharətin (dəstəmazın) naqislikləri(on beyt): Təharəti (dəstəmazı) batil edən naqisliklər nəzmə düzülmüşdür:

*Iki yandan nə kim dəf etsə tahir,*
*Təharətinin olur nöqsanı zahir* [1,603-604].

12. *Qüslün vacib halları(yeddi beyt)*: Şəhvətlə bağlı, qadın və kişidə cinsiyyət orqanlarının təmizliyi çox vacibdir:

*Erür qüsl əmrinə vacib neçə hal,*
*Biri şəhvət üzündən olmaqinzal* [1,604].

13. Qüslün fərzləri olaraq aşağıdakılar vacib buyurulur(dörd beyt):

*Ağızda mazmaza qılmaq, bilgil,*
*Buruna dəxi istinşaq, bilgil* [1,604].

1) Ağızın içini yumaq.
2) Burnun içini yumaq.
3) Bədənin hər yerini yumaq.

14. Qüslün sünnətləri(yolları, adətləri)(dörd beyt): bu fəslin qayəsi aşağıdakı kimi anladılır:

*Ilk əvvəl yumaqlıq ilə məfhum,*
*Bəs ondan son yumaqdır üzvü məlum.*
*Bədəndə gər nəcasət olsa zahir,*
*Ani qılmaq durur su ilə tahir* [1,605].

Qeyd: Günümüzdə qüslün beş sünnəti məlumdur:

1) Təsmiyə (başlayarkən Allahın adını zikr etmək).
2) Yuyunmamışdan öncə dəstəmaz almaq.
3) Əl ilə bütün bədəni ovxalamaq.
4) Qüslün hərəkətlərini arası kəsilmədən yerinə yetirmək (Dəstəmazın fərzlərində keçdiyimiz kimi hərəkətləri, arası kəsilmədən yerinə yetirmək lazımdır).
5) Sağ tərəfi sol tərəfdən öncə yumaq (qüsl alarkən bədənin istər ön, istərsə də arxa tərəfi yuyularkən əvvəlcə sağ tərəfdən başlanmasıdır).

15. Təyəmmümün fərzləri (və Təyəmmümün naqisləri). (dörd beyt):

*Təyəmmümün fərzi əvvəl oldu niyyət,*
*Ilk topraqda irmaq iki növbət (dəfə).*
*Gərəkdirir bir üzünü məsh etmək,*
*Yenə bir-bir məsh et, qol və dirsək* [1,605].

Qeyd:

1) Niyyət etmək (Niyyət etdim fərz olan namazı özümə halal etməyə);

2) İki əlin içini təmiz torpağa sürtüb, üzün hər yerinə məsh çəkmək.

3) Əlləri təmiz torpağa vurub, öncə sağ və sonra sol qola məsh çəkmək (Barmaq uclarından dirsəklərə qədər (dirsəklər də daxil) qolların tamamına məsh çəkmək;

Təyəmmümün fərzi üçdür: Dəstəmaz almaq və qüsl etmək üçün təyəmmüm eynidir. Yalnız niyyətləri fərqlidir. Dəstəmaz üçün edilən təyəmmüm ilə qüsl edilmiş olmaz. Eyni təyəmmümün qüsl üçün də səhih olmasına görə qüsl üçün dəniyyət etmək lazımdır.

16. Namazın fərzləri və altı xarici fərzinin şərhi (altı beyt): Namazın fərzləri on ikidir. Bunların altısı daxilində, altısı xaricindədir. Xaricindəki fərzlərə şərt deyilir. Namazın altı xarici fərzinin şərhi:

1) Hədəsdən təharət – Dəstəmazsız olanın dəstəmaz alması; cünub, heyz və nifaslı olanın qüsl almasıdır.

2) Nəcasətdən təharət – Namaz qılanın vücudunu, paltarını və namaz qılacağı yeri nəcasətdən, yəni dinimizdə murdar sayılan şeylərdən təmizlənməsidir.

3) Sətri-övrət – Övrət yerini örtmək deməkdir. Namaz qılarkən, açılması və ya həmişə başqasına göstərilməsi və başqasının da baxması haram olan yerlərə “övrət yeri” deyilir. Kişinin övrət yeri göbəyindən dizinin altına qədərdir. Qadınların isə üz və əllərindən başqa hər yeri övrətdir.

4) Qiblə təyini – Namaz qılarkən, qibləyə dönmək. Müsəlmanların qibləsi, Məkkəyi-Mükərrəmə şəhərində olan Kəbənin sahəsidir. Yəni yerdən ərşə qədər o boşluq qiblədir.

5) Vaxt – Namazı vaxtında qılmaq.Yəni namazın vaxtının girdiyini bilmək və qıldığı namazın vaxtını qəlbindən *keçirməkdir.*

*6) Niyyət – Namaza durarkən qəlblə niyyət etmək. Təkcə ağızla söyləməyə niyyət deyilməz. Namaza niyyət etmək demək adını, vaxtını, qibləni və camaatla qılınırsa, imama tabe olmağı qəlbdən keçirmək deməkdir. Niyyət başlama təkbiri deyilərkən edilir.Təkbirdən sonra edilən niyyət qəbul deyildir və o namaz qəbul olmaz* [2,38-39].

*Namaz içrə farz olan, ey hürədmənd,*
*On iki nəmə eyləyibdir Xudavənd.*
*Namazınğa alardin altı daxil,*
*Yenə altısı xaric gəldi hasil* [1,605].

*Namazın altı daxili fərzinin bəyanı (beş beyt): Namazın içindəki fərzlərə rükn deyilir.*

*1) İftitah təkbiri – Namaza başlayarkən, "Allahu əkbər" demək. Başqa söz söyləməklə təkbir gətirilmiş olmaz.*

*2) Qiyam – Namazda ayaq üstə durmaq. Ayaq üstə dura bilməyən xəstə oturar. Oturaraq qıla bilməyən uzanıb ima ilə qılar.*

*3) Qiraət – Namazda "Qurani-Kərim"dən surə və ya ayə oxumaq.*

*4) Rüku – Ayaq üstə oxuyub bitirdikdən sonra əyilib əlləri dizə qoymaq.*

*5) Səcdə – Rükudan sonra diz və əlləri yerə qoyub, alnı yerə toxundurmaq.*

*6) Son oturuş – Son rükətdə "ət-Təhiyyatu"nu bitənədək oturmaq* [2,38-30].

*Çu xaricaltıdan qıldım əyanın,*
*Qilay daxilni həm xatir- nişanin* [1,606].

17. Namazın vacib şərtlərindən bəhs edilir (beş beyt).

*Namazın içrə vacib gəldi yetdi,*
*Ki sahibi şərdən bir növ gəldi.*
*Əvvəl, " əl-Həmdi"ni qılmaq qiraət,*
*Yenə surə ona qılmaq izafət* [1,606].

1) "Fatihə" surəsini oxumaq.

2) "Fatihə"dən sonra bir surə və ya üç qısa ayət oxumaq

3) "Fatihə"ni surədən əvvəl oxumaq.

4)"Fatihə"ni və "Fatihə"dən sonra oxunan surəni fərzlərin birinci və ikinci rükətlərində, vacib və sünnətlərin hər rükətində oxumaq.

5) Səcdələri bir-birinin ardınca etmək.

6) Üç və dörd rükətli namazların ikinci rükətində təşəhhüd miqdarı oturmaq. Son oturuş fərzdir.

7) İkinci rükətdə təşəhhüddən artıq oturmamaq.

8) Səcdədə burunu alın ilə bərabər yerə qoymaq.

9)Son rükətdə oturarkən "ət-Təhiyyatu" duasını oxumaq

10) Namazda tadili-ərkana riayət etmək.

11) Namazın sonunda "Əs-səlamü aleyküm və rəhmətullah" demək [2,69-70].

18. Namazın on yolu (əməli) və on buyruğunun bəyanı (qavlisinin ədası) (yeddi beyt)**:** Namazın iyirmi sünnəti var ("Namaz içrə yiqirmi gəldi sünnət, Hər kim belə qılsa, canına minnət" [1,606].

*Namaz içrə iyirmi gəldi sunnət,*
*Hər kim belə qılsa, canına minnət.*
*İyirmidən onunu anla buyruq,*
*Yenə on əməlini bilmək əvvəl* [1,606-607].

1) Namazda əlləri qulağa qaldırmaq.

2) Əlin ovucunu qibləyə çevirmək.

3) Təkbir aldıqdan sonra əl bağlamaq.

4) Sağ əli sol əlin üzərinə qoymaq.
5) Kişinin əllərini göbəyindən aşağıya qoyması, qadının sinəsinə qoyması.
6) Iftitah təkbirindən sonra “Sübhanəkə” oxumaq.
7) İmamın və tək qılanın “Əuzu” oxuması.
8) Bəsmələ oxumaq.
9) Rükuda üç dəfə “Sübhanə rabbiyəl-azım” demək.
10) Səcdədə üç dəfə “Sübhanə rabbiyəl-alə” [2,70].

Namaz sunnətlərinin (əməlinin) on hərəkətinin bəyanı (yeddi beyt)**:**

*Yenə feli birəvg‘a kim bilikdur,*
*Qulağa kimi bəyik qilmaq iliğdur.*
*Iki ovucu yerdə olsa mənsub,*
*Erür səcdə arada başqa mətlub* [1,607].

1) Son oturuşda “Salavat” dualarını oxumaq.
2) Üzü sağa və sola çevirib salam vermək.
3) İmamın, cümə və bayram namazlarından başqa, hər namazda birinci rükətdə ikinci rükətdə oxuyacağının iki misli qədər uzun oxuması.
4) Rükudan qalxarkən imamın və yalnız qılanın “Səmiallahü limən hamidəh” deməsi.
5) Rükudan qalxınca “Rabbəna, ləkəl-həmd” demək.
6) Səcdədə ayaq barmaqlarını bükərək uclarını qibləyəçevirmək.
7) Rüku və səcdələrə enərkən və səcdələrdən qalxarkən “Allahu-Əkbər” demək.
8) Əlləri və dizləri yerə qoymaq.
9)Topuqları qiyamda bir-birindən dörd barmaq eni qədər uzaq, rükuda, qavmə və səcdədə bitişik tutmaq.
10) “Fatihə”dan sonra “amin” demək, rükudan öncə təkbir almaq, rükuda, əlləri, barmaqları açıq olaraq diz qapaqları üzərinə bağlamaq, səcdə üçün təkbir almaq, oturarkən sol ayağını yerə yatırıb, sağ ayağını dikib oturmaq, iki səcdə arasında oturmaq [2,71].

19. Namaz fərzinin rükət sayı(üç beyt)**:**

*Gecə-gündüz namazı, kim erür fərz,*
*Erür on yeddi rükət eylə, kim karz.*
*Iki sübh və yenə dörd oldu peşin*
*Yenə əsr uçrə buldu dört təyin.*
*Üçü dörd anla, məğriblə aşoda,*
*Vali gil vitrini vacib arada”* [1,608].

1) Sübh namazı iki rükətdir.

2) Zöhr namazı dörd rükətdir.
3) Əsr namazı dörd rükətdir.
4) Məğrib namazı üç rükətdir.
5) İşa namazı dörd rükətdir. Vaxtı günəş batandan şəfəq itənə qədər davam edir.

Cəmi on yeddi rükət oldu.

20. *Namaz sünnətlərinin (əməlinin) rükət sayı(iki beyt)*:

*Birovkim, kecə-gündüz qilsa itaət,*
*Erür sunnət ana on iki rükət.*
*Ikirər anla, sübh o huftən-ü şam,*
*Yenə reşinni altı dəfə eyyam* [1,608].

1) *Sübh namazı:* Rükət sayı: Sübh namazı dörd rükətdən ibadətdir. Əvvəlcə iki rükət sünnəti, daha sonra isə iki rükət fərzi qılınır.

2) *Zöhr namazı:* Rükət sayı: Zöhr namazı on rükətdir. Öncə 4 rükətilk sünnəti, sonra dörd rükət fərzi, daha sonra isə 2 rükət son sünnəti qılınır.

3) *Əsr namazı:* Əsr namazı səkkiz rükətdir. Öncə dörd rükət sünnəti, daha sonra isə dörd rükət fərzi qılınır.

4) *Məğrib (axşam) namazı:* Məğrib namazı beş rükətdir. Əvvəlcə üç rükət axşam namazının fərzi, ardınca isə iki rükət sünnəti qılınır.

5) *İşa (gecə) namazı:* Rükət sayı: Vitr namazı ilə birlikdə on üç rükətdir. Öncə dörd rükət ilk sünnət, sonra dörd rükət fərz, iki rükət son sünnət və üç rükət vitr namazı qılınır.

21. İslamın üçüncü rüknü (əsası) zəkatdır, bəyanı belədir(on üç beyt):

*Zəkat oldu üçüncü rükn, bilgil,*
*Nə üçün kim əmr qılmış Tanrı, qıl* [1,608-609].

“Malının zəkatını verməkdir”. Zəkatın lüğəvi mənası təmizlik, tərifləmək və yaxşı, gözəl hala gəlmək deməkdir. İslamiyyətdə zəkat demək, ehtiyacından artıq və “Nisab” deyilən müəyyən bir hədd miqdarında “Zəkat malı” olan kiminsə malının müəyyən miqdarını ayırıb, “Qurani-Kərim”də bildirilən müsəlmanlara başa qaxmadan verməsi deməkdir. Zəkat yeddi sinif insana verilir. Dörd məzhəbdə də dörd cür zəkat malı vardır: Qızıl və gümüş zəkatı, ticarət malı zəkatı, ilin yarıdan artığında otlaqda otlayan dördayaqlı qəssab heyvanlarının zəkatı və torpaq məhsullarının zəkatıdır. Bu dördüncü zəkata “Uşr” (onda bir hissə) deyilir. Yerdən məhsul alınar-alınmaz uşr verilir. Digər üç zəkat nisab miqdarı olduqdan bir il sonra verilir” [2,30].

22. İslamın dördüncü rüknü (əsası) rizanı (ramazan orucu tutmaq) şərh etmək(on bir beyt):

*Erür dördüncü rüknü islamdan savm,*
*Ki ötən kimsəyə takva ilə yəvm.*
*Çü rizə fərz oldu ildə bir ay,*
*Onun icrasında ol nəfsi-fərsay.*

İslamın beş şərtindən dördüncüsü Ramazanı-şərif ayında hər gün oruc tutmaqdır. Oruc tutmağa “Saum” deyilir. Saum lüğətdə bir şeyi bir şeydən qorumaq deməkdir. İslamiyyətdə şərtlərə diqqət edərək Ramazan ayında, (müsəlman təqvimində bir ay ya 29 , ya da 30 gündən ibarətdir) Allah-Təala əmr etdiyi kimi üç şeydən özünü qorumaq deməkdir. Bu üç şey yemək, içmək və cimadır (cinsi münasibət). Ramazan ayı göydə hilalı (yeni ayı) görməklə başlayar. Təqvimlə, əvvəlcədən hesablamaqla başlamaqolmaz [2,30-31].

23. Favt bulqan ruza əvəzi (vəfat etmiş birinin orucunu tutmaq) və kəffarəsi(beş beyt)**:** Ramazanı-Şərif ayında Allah-Təala əmr etdiyi üçün sevə-sevə oruc tutmalıdır. Bu aclığı və susuzluğu səadət bilməlidir [1,610]:

*Qəza yeb ruzə ol-kim, qilsa zayıl,*
*Və ya nəfsi olub şəhvətə mayil.*
*Kəfarət bəndeyi qılmaqdır azad,*
*Ki bolğay ol yazıqdan xatiri şad.*
*Yox ərsə altmış miskinqə təam,*
*Erür altmış gün savm nakam* [1,610].

Ramazan ayının orucunun kəffarəsi vacib olan bir şəxs ya 2 ay oruc tutmalı, ya da 60 fəqiri doydurmalı, yaxud onların hər birinə bir müdd (təqribən 750 qr) təam (yəni buğda, arpa və bu kimi ərzaq) verməlidir. iki ay kəffarə orucu tutmaq istəyən şəxs otuz günü ardıcıl tutmalıdır, yerdə qalan günlər (iyirmi doqquz gün) isə ardıcıl olmaya da bilər. Bu zaman ardıcıl tutmalı olduğu otuz günü elə gündə başlamalıdır ki, orucu haram günlərə (Qurban bayramı kimi) düşməsin.

24. İslamın beşinci rüknü (əsası) Həcc ziyarətidir, bəyan etmək (9 beyt)**:**

*Beşinci rükn bilgil həcc-i islam,*
*Çu fərz oldu ədasi gəldi nakam.*
*Vəli farzlərin şərtləri var,*
*Qulaq tut, kim qılar barını izhar.*
*Yenə bir şərt yol əmniyyəti, bil,*
*Bu çün mövcud olurhəcc niyyətin qıl.*

İslamın beş şərtindən beşincisi “Gücü çatanın ömründə bir dəfə həccə getməsidir”. Yol əmin və bədən sağlam olaraq Məkkəyi-Mükərrəmə şəhərinə gedib gələnə qədər ailəsinin dolanışığına yetəcək qədər maldan artıq qalan pul ilə oraya

gedib gələ biləcək kiminsə ömründə bir dəfə, ehramlı olaraq Kəbəyi-Müəzzəməni təvaf etməsi və Ərəfat meydanında durması fərzdir” [2,31]. Bu qədər Allahı, dini, onun peyğəmbərlərini, müqəddəs kitablarını, islam dünyasının tanınmış – nüfuzlu şəxslərinin şəninə canı-könüldən əsərlər – mənzum və mənsur əsərlər həsr etmiş, Heratda, Məşhəddə bir-birindən gözəl, hətta günümüzə qədər gəlib çatmış mədrəsə və digər tikililər yaratdırmış, minlərlə insanların maddi və mənəvi cəhətdən köməyinə çatmış, saymaqla bitməyən xeyirxahlıqlar etmiş Əlişir Nəvai həcc ziyarətinə getmək istəsə də, Allah onun nəsibinə bu mübarək səfəri yazmamışdır. O, 1499-cu ildə həcc ziyarətinə getmək üçün Sultan Hüseyn Bayqaradan izn istəyir. Sultan ona izn versə də, o, səhhəti ilə bağlı bu səfərdən imtina edir. Onun “Siracul-müslimin” kimi bir kitabı ortaya qoymaqdan başqa, həm də bir mənəvi borcunu yetirmiş amacında olduğu diqqətə yetirilir.

25. Xatimə (Son) və kitabın yekununu bəyan etmək(on bir beyt)**:** “Siracul-müslimin”in “Xatimə”sində şair mənzuməsinin insanlar üçün faydalı olacağını ümid edib, “müsəlmanların könlünə işıq tutsun”, – deyə kitaba “Siracul-müslimin” (“Müsəlmanların çırağı”) adını verməsini belə əsaslandırmışdır:

*Səbəb bu işni qildi dövr-i əyyam,*
*Taparsa bu kitab ağazı əncam.*
*Çü rövşən eylər islam əhli zatın,*
*“Siracul-müslimin” qoymuşam adın.*

Ümid edirəm ki, xalqım oxuyacaq, bu əsərin nuru ilə könlünü sevindirəcək və məni daima duası ilə yad edəcək.

*Umidim olki, hərkim, kim oxuyar,*
*Bunun nuru ilə könlü yarıyar.*
*Dua ilə məni həm eyləyər yad,*
*Rəvanım ol duadan eyləyənşad* [1,611-612].

Yuxarıda ayrı-ayrı bölmələrdə şərh etdiyimiz əməl və qaydaları təkrar olsa da, belə ümumilədirə bilərik: Əlişir Nəvai “Siracul-müslimin” əsərində əsasən islam dininin fəzilətlərini və qanun-qaydalarının şərhini verir: Islam ehkamları iki hissədə nəzərdən keçirilir: əqidə və amal. İman şərtləri qismində Allahin birliyi, mələklərə, ilahi kitablara, peyğəmbərlərə, axirət gününə, qədər-təqdirə inam kimi məsələləri şərh edib. Allahın sifətlərini (Həyat, Elm, İradə, Qüdrət, Səm (eşitmə), Basar (görmə), Kəlam, Yaratma) bəyan edir: Allahın bənzəri yoxdur, onun qüdrəti hər şeydən xəbərdar olur, bəndələri kimi ehtiyacı olmur, qəbir əzabını, iki mələyin: Nakir və Münkirin sorğularını, Sirat körpüsünü, cənnət və cəhənnəmi, peyğəmbərlərin şəfaətini, Həzrət Peyğəmbərin (s) bunların ən alisi olduğunu, övliyanın kəramətini ifadə edir. Daha

sonra təmizlənmənin fərzləri və sünnətlərini, abdəst almağın bəyənilən və əskik qalan tərəflərini, yuyunmanın vacibliyini, yuyunmanın fərzlərini və sünnətlərini, su tapılmayan (olmayan) yerdə torpaqla abdəst almanın fərzlərini və əskiklərini, namazın fərzlərini, vacibliyini, sünnətlərini, bunların rükətlərinin sayını, İslam dininə aid olan zəkatın, orucun və həccin məqsəd və vacibliyi şərh edilir. Bu qədər Allahı, dini, onun peyğəmbərlərini, müqəddəs kitablarını, islam dünyasının tanınmış – nüfuzlu şəxslərinin şəninə canı-könüldən əsərlər – nəzm və nəsrlə əsərlər bəxş etmiş, Heratda, Məşhəddə biri-birindən gözəl, hətta günümüzə qədər gəlib çatmış mədrəsə və digər tikililər yaratdırmış, minlərlə insanların maddi və mənəvi cəhətdən köməyinə çatmış, saymaqla bitməyən xeyirxahlıqlar etmiş Əlişir Nəvai həcc ziyarətinə getmək istəsə də Allah onun nəsibinə bu mübarək səfəri yazmamışdır.

Türkiyəli nəvaişünas alim Tanju Oral Seyhan "Siracul-müslimin" əsərinin Türkiyənin Fatih, Topqapı saray və Süleymaniyyə kitabxanalarındakı nüsxələrinin mətni üzərindəki müqayisəli araşdırmasına da istinad etmişik (bu mətn üzərində çalışarkən, Tanju xanım məsləhətlərini əsirgəməyib) [3].

"Siracul-müslimin" əsəri haqqında bu tədqiqatımızı Əlişir Nəvainin on cildlik kitabı əsasında hazırladıq. Bu kitaba daxil edilmiş "Siracul-müslimin" əsərini mərhum nəvaişünas alim Siyuma Ğəniyeva hazırlamışdır.

Nəvaişünas alim Erqaş Açilovun bu əsər haqqında müxtəlif mənbələrdəki tədqiqatlarına nəzər salınmışdır. Bu sətirlərin müəllifi [4] də müxtəlif zamanlarda ayrı-ayrı tədqiqat yazılarında əsər haqqında fikirlərini bildirmişdir.

Müasir dövrümüzdə islam qaydalarına dair ana dilimizdə yüzlərlə, bəlkə də, minlərlə kitab yazıldığından, burada tam təfərrüata varmırıq.

Əlişir Nəvainin "Siracul-müslimin" əsərinin mövzu və məzmunu haqqında şərh verməklə yanaşı, bugünkü bəzi mənbələrdən, xüsusən "Kitabus-salat" (Namaz kitabı) adlı əsərdən bir qədər ətraflı məlumatla nəzmə düzülmüş fikirləri nəsrlə açmaq niyyətində olduq.

**Ədəbiyyat:**

1. Навоий, Алишер. Тула асарлар туплами, 10 ж-лик, 10-ж. – Т.: 2011, 690 bet. (b. 595-612).
2. Kitab üs-salat: Namaz kitabi (hazırlayan: Həsən Yavaş) Tərcümə edəni: Ramil Xəlilov. - Bakı, Nurlar, 2010, 144 səh.
3. Seyhan, Tanju Oral. "Ali Şer Nevayi – Sirasü l-Müslimin 1" //"Modern Türklük Araşdırmalar dərgisi, cild 2, sayı 4, aralıq 2005. – (s.88-120).
4. Ülvi, Almaz (Binnətova). Əlişir Nəvainin əsri və nəsri (elmi-filolojivə dini-təsəvvüfi əsərləri). Monoqrafiya. – Bakı, "Elm və həyat", 2023, 680 səh.